# Fikrət Qoca - 70

Bu günlərdə "Muğam" teatrında xalq şairi, Azərbaycan Yazıçılar Birliyinin birinci katibi Fikrət Qocanın anadan olmasının 70 illiyi ilə bağlı tədbir keçirildi. Tədbiri xalq yazıçısı, AYB-nin sədri Anar açaraq bildirdi ki, bütün yaradıcılığı boyu sözün yaradıcısı, qoruyucusu və yeniləyicisi kimi öhdəsinə düşən vəzifələri şərəflə yerinə yetirən Fikrət Qocanın səciyyəvi keyfiyyətlərindən çox danışmaq olar. "Mən yalnız bütün yaradıcılığı boyu şairin sadiq olduğu bir cəhəti qeyd etmək istəyirəm: Bu cəhət üç ünsürün — yüksək vətəndaşlıq pafosu, zərif lirik duyğu və gülüş-təbəssüm ünsürünün Fikrət Qoca poeziyasında üzvi birləşməsi, vəhdəti, sintezidir..."



Qədim Gəncə şəhərindən start götürüb, Ağdaşda, Moskvada, İstanbulda davam edən və nəhayət, Bakı şəhərində yekunlaşdırılan yubiley tədbirində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın görkəmli şairə ünvanladığı təbrik teleqramı oxunduqdan sonra söz alan xalq şairləri Vaqif Səmədoğlu, Nəriman Həsənzadə, Zəlimxan Yaqub, bəstəkarlardan Ruhəngiz Qasımova, Mehriban Əhmədova və başqaları Fikrət Qoca yaradıcılığının ədəbiyyat tariximizdə tutduğu özünəməxsus yer haqqında ürək sözlərini söylədilər.

Tədbirdə bədii qiraət ustalarından xalq artisti Əminə Yusifqızının, əməkdar artist Ağalar Bayramovun ifasında səsləndirilən şeirlər dinləyicilərə bir daha Fikrət Qoca poeziyasının sirli aləmini yaşatdı.

Şairin sözlərinə Emin Sabitoğlunun, Ramiz Mirişlinin, Telman Hacıyevin, Ruhəngiz Qasımovanın, Mehriban Əhmədovanın, Sevil Əliyevanın, Firəngiz Babayevanın bəstələdiyi mahnılar isə xalq artisti Azər Zeynalov və əməkdar artist Nazpəri Dostəliyeva tərəfindən ifa olundu.

Tədbirin sonunda xalq şairi Fikrət Qoca yubiley iştirakçılarına, ilk növbədə, ona təbrik məktubu ünvanlamış Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya, tədbiri təşkil edən "Muğam" teatrının rəhbərliyinə səmimi minnətdarlığını bildirdi.

**S.Hüseynoğlu**



## Fikrət Qoca

*Şair dostumun 70 illiyinə*

Şair — cavanlıqdan Fikrət Qocaydı,
Gözü tox olsa da, sözün acıydı,
Yaşamaq — yaşatmaq ehtiyacıydı, —
Başın uca olsun, ucaltdıq səni.

Səni tək qoymadı səndəki ülfət,
Yeridi, yüyürdü yanında şöhrət,
Arada qəsdinə durdu təbiət, —
Tanrının əlindən borc aldıq səni.

Elə ki, tutuldun, xiffət elədin,
Sözünü dillərdə sərvət elədin,
Fikrəti — sən özün Fikrət elədin, —
Qoca deyə-deyə qocaltdıq səni.

**Nəriman Həsənzadə**
*xalq şairi*